# İLK RƏSƏDXANA – MİRZƏ ULUĞBƏY

Əmir Teymurun nəvəsi Mirzə Məhəmməd Tarağay Uluğbəy 1394-cü ilin martın 22-də Zəncan vilayətinin Sultaniyyə (indiki İran sərhədləri daxilində) şəhərində anadan olmuşdur.

1447-ci ildə atası Şahrux Sultan dünyasını dəyişdikdən sonra böyük bir imperiyanı təkbaşına idarə etməli olur. Onun gördüyü işlərdən narazı qalan, hakimiyyət bölgüsündə aldığı payla razılaşmayan, irticaçı saray məmurları Uluğbəyin oğlu Əbdüllətif Mirzəni atasına qarşı qiyama təhrik edirlər. Şeyxlərin fitfasıyla çağırılan divanda onu zalımlıqda, ədalətsizlikdə suçlayıb ölüm hökmü kəsir. Məşhur astronom, riyyaziyyatçı, böyük alim və hökmdar və Teymurilər sülaləsindən olan dövlət adamı Mirzə Uluğbəy ona qarşı üsyan edən oğlunun qoşunlarına məğlub olandan sonra Məkkəyə getməyə icazə verilmiş, ancaq öz sözünün üstündə durmayan oğlu tərəfindən 27 oktyabr 1449-cu ildə Səmərqənddə öldürülmüşdür.

Sarayda hər cür qayğı ilə əhatə olan Uluğbəyi gələcəyin hökmdarı kimi tərbiyə etməyə çalışırlar. Yeniyetməliyindən şeirlər yazır, Qurani-Kərimi əzbərdən bilən hafiz kimi tanınır. O, Teymurləngin nəvəsi idi. 1409-cu ildə 15 yaşlı Torağay Mirzə vəliəhd olduğuna görə Teymurilər imperiyasının paytaxtı Səmərqəndə hakim təyin edilir. O, yüksək vəzifəsindən təhsilini artırmaq, məktəblər, kitabxanalar açmaq, elmi təşkilatlar yaratmaq üçün istifadə edir. Onun elmə verdiyi dəyərdən xəbər tutan alimlər Səmərqəndə doğru axışırlar. Açdığı mədrəsələrdə istedadlı gənclər təhsil alırlar. Gənc Torağay Mirzə atası Sultan Şahruxun böyük oğlu və vəliəhdi kimi Məvareynnəhri idarə etməklə yanaşı, elmə və sənətə bu qədər zaman ayıra bilməsi də heyrət doğurur. Uluğbəyin açdığı mədrəsədə Əli Quşçu, Kaşi kimi böyük alimlər çalışır.Tarixə Uluğbəy rəsədxanası kimi daxil olan bu elm müəssisənin əsasını qoyan Torağay Mirzə astronomiyadakı bir çox yanlışlıqları yeni riyazi hesablamalar vasitəsilə aradan qaldırır. Beləcə özü də tarixə ən böyük riyyaziyyatçı və astronom kimi daxil olur. Tərtib etdiyi ulduz kataloqu, yəni planlı cədvəllər eklintika meylinin təyin edilməsinə və illik presessiya sahəsindəki araşdırmalara güclü təkan vermişdi.Ulduz cədvəli kitabı beş hissədən ibarətdir. O beş hissənin ikisi astralogiyaya – ulduzlara görə insan taleyindən, gələcəkdə baş verəcək təbii hadisələrə həsr edilib.Uluğbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu uzun müddət dünyada ən mötəbər kataloq sayılmışdır.